# 4th INTERNATIONAL NOWRUZ CONFERENCE ON SCIENTIFIC RESEARCH

March 18-21, 2021/ Karabagh, AZERBAIJAN

## THE BOOK OF FULL TEXTS
## VOLUME-I



## EDITORS


Prof. Dr. Ramazan GAFARLI
Dr. Mustafa Latif EMEK



ISBN: 978-625-7636-30-8

# 4TH INTERNATIONAL NOWRUZ CONFERENCEN ON SCIENTIFIC RESEARCH

March 18-21, 2021
Karabagh, Azerbaijan

THE BOOK OF FULL TEXTS
VOLUME-I

**EDITORS**
**Prof. Dr. Ramazan GAFARLI**
**Dr. Mustafa Latif EMEK**

**All rights of this book belong to ISPEC Publishing House**
**Authors are responsible both ethically and jurisdically**
**ISPEC Publications - 2021©**
**Issued: 10.04.2021**

**ISBN: 978-625-7636-30-8**

# AZƏRBAYCANLI RƏSSAMLARIN ŞUŞA SEVGİSİ
SHUSHA LOVE OF AZERBAIJANI ARTISTS

**Ağayev Emil Raul oğlu**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kolleci, "İncəsənət və fiziki tərbiyə" FBK
ORCID NO: 0000-0001-9354-0839

**ÖZET**

Azərbaycan təsviri sənətində mühüm yer tutan mövzulardan biri də vətənpərvərlik hisslərinin kompozisiyalarda canlandırılmasıdır. Xüsusilə Qarabağa həsr edilən faciə, tarixi abidələrin təsviri, mənərə janrında işlənilən əsərlər tamaşaçıların diqqətinə çatdırılmışdır. Azərbaycanlı rəssamların bu mövzuda müraciət etdiyi əsərlərində isə Qarabağın beşiyi sayılan Şuşaya olan sevgini, rəng, ağ-qara ştrixlər, plastikanın dili ilə daha aydın görə bilərik. Tarixi şəhərin abu-havası məşhur rus rəssamı Vereşaqının əsərlərində ilkin olaraq canlandırılır. Azərbaycanın tanınmış qadın rəssamlarından biri olan Elmira Şahtaxtinskaya "Cıdır düzü.Şuşa"(1970), "Əsgəran qalası" (1970) əsərlərində öz fərdi yaradıcılıq xüsusiyyətlərini nümayiş etdirir. Xalq rəssamı Toğrul Nərimanbəyovun "Şuşa" kompozisiyasında nağıllar aləmində canlandırılan sevgi, müqəddəs şəhər kimi təsviri sənətin dili ilə canlandırılır. Öz yaradıcılığında Qarabağ mövzusuna geniş yer ayıran Altay Hacıyev şəhərin ümumi vedutasına bütün diqqətləri çəkir. Ağ-qara cizgilərlə yaradıcılığında Şuşaya səyahət etdirən Elturan Avalov "Bülbülün evi", "Xan Şuşinskinin evi", "Süleyman Ələsgərovun evi" və digər əsərlərində bu torpağın yetişdirdiyi tarixi şəxsiyyətlərin ünvanını, memarlıq abidələrini, küçələrini sənət fəlsəfəsi ilə açıqlayır. Rahib Qarayev Şuşaya həsr etdiyi kompozisiyanı isə mənim qürur mənbəyim adlandırmışdır. Arif Hüseynov "Şuşa", Rövşən Bayramov "Şuşa mənzərəsi", "Vaqifin məqbərəsi", "Gövhər ağa məscidi", Cəlil Hüseynov "Topxana meşəsi" əsərlərində tarixin müxtəlif dövrlərini yaşayan bir şəhəri rəssamlarımızın yaradıcılığında izləyirik. Vüqar Əli və Mir Azər Abdullayevin plakat janrında işlədiyi əsərləri isə artıq yeni təsvir dili ilə seçilir.

2020-ci il 8 noyabr tarixində Azərbaycanın ali baş komandanı İlham Əliyev və ordumuzun Şuşa şəhərini işğaldan azad etməsi ilə artıq təsviri sənətimizdə də qələbə ruhlu əsərlərin yaranması üçün yeni bir səhifə açılır.

**Açar sözlər**: Azərbaycan, Qarabağ, Şuşa, təsviri sənət, rəssam

**ABSTRACT**

One of the important themes in the fine arts of Azerbaijan is the revival of patriotic feelings in the compositions. In particular, the tragedy dedicated to Karabakh, descriptions of historical monuments, works in the genre of minarets were brought to the attention of the audience. In

the works of Azerbaijani artists on this subject, we can see more clearly the love for Shusha, the cradle of Karabakh, with its colors, black and white strokes, and the language of plasticity. The atmosphere of the historic city is first revived in the works of the famous Russian artist Vereshagi. Elmira Shakhtakhtinskaya, one of the well-known women artists of Azerbaijan, demonstrates her individual creativity in her works "Cidir Duzu. Shusha" (1970) and "Askeran Qalasi" (1970). In the composition "Shusha" by People's Artist Togrul Narimanbekov, love revived in the world of fairy tales is revived in the language of fine arts as a holy city. Altay Hajiyev, who focuses on the Karabakh issue in his work, draws all the attention to the general veduta of the city. Elturan Avalov, who traveled to Shusha in black and white, in his works "Nightingale's House", "Khan Shushinsky's House", "Suleyman Alasgarov's House" and other works, reveals the addresses, architectural monuments and streets of historical figures cultivated by this land. Rahib Garayev called the composition dedicated to Shusha a source of my pride. In the works of Arif Huseynov "Shusha", Rovshan Bayramov "Shusha landscape", "Vagif's mausoleum", "Govhar aga mosque", Jalil Huseynov "Artillery forest" we see a city living in different periods of history in the works of our artists. The works of Vugar Ali and Mir Azer Abdullayev in the poster genre are already distinguished by a new descriptive language.

With the liberation of Shusha by the Supreme Commander-in-Chief of Azerbaijan Ilham Aliyev and our army on November 8, 2020, a new page is opened for the creation of works in the spirit of victory in our fine arts.

**Keywords:** Azerbaijan, Karabakh, Shusha, fine arts, artist

## GİRİŞ

İncəsənət insan hisslərinin müxtəlif vasitələrlə çatdırılması ilə bərabər, bir sıra xüsusiyyətlərə malikdir. Vətənə olan sevgini incəsənətin müxtəlif növlərində sənətkarların müəllifi olduğu əsərlərdə daha aydın görürük. Təsviri sənətin ifadə vasitələri ilə də biz bütün bu deyilənləri təsdiqləyə bilərik. Azərbaycanın dilbər guşəsi olan Qarabağın əks olunması daima təsviri sənətimizdə aktual mövzu olmuşdur. Qarabağın mədəniyyət beşiyi sayılan Şuşanı isə rəssamlarımız xüsusilə diqqət mərkəzində saxlamışlar. Bu isə səbəbsiz deyildir, Şuşa ölkəmizin mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

## AZƏRBAYCANLI RƏSSAMLARIN ŞUŞA SEVGİSİ

Rəssamlarımızın Şuşa sevgisi təsvir etdikləri kompozisiyalarda daxili aləmlərinin vətənə olan sevgisini bir daha sübut edir. Azərbaycanın istedadlı qadın rəssamlarından biri olan Elmira Şahtaxtinskaya yaradıcılığında Şuşanın ecazkar təbiətinin bir daha şahidi oluruq. 1970-ci ildə müəllifi olduğu "Cıdır düzü" (ill 2), "Əsgəran qalası" (ill 1) əsərlərində rənglərin parlaqlılığını xüsusilə vurğulamışdır.

Toğrul Nərimanbəyovun kompozisiyaya (ill 3) diqqət yetirsək, Şuşa müqəddəs şəhər kimi təqdim edilmişdir. Milli dəyərlərimiz, adət-ənənələrimizin təsvirinə geniş yer ayrılmışdır. Kompozisiyanın yuxarı hissəsində muğam üçlüyünün ifası sanki şəhərin səmasında mələklərin rəqsi ilə tamamlanır. Dədə Qurqudun ikonoqrafik obrazı öz qopuzu ilə təsvir edilmişdir. Məşhur Gövhər ağa məscidinin qarşısında iki gəncin sevgisi, milli Novruz bayramımız, gənc

qızın əlindəki xonça,bir xalqın sahib olduğu mədəni sərvətləri canlandırır. Əsərdə miniatüra üslubu və primitivizm cərəyanının sintezi aydın hiss olunur.
Yaradıcılığında Qarabağın tarixi şəxsiyyətlərinə, mənzərələrinə müraciət edən xalq rəssamı Altay Hacıyev Şuşa mövzusunu özü üçün prioritet seçmişdir. Şəhərin ümumi monumental vedutasına müraciət etmişdir.



**İLL1.Elmira Şahtaxtinskaya "Əsgəran qalası"(kətan, yağlı boya)**



**İLL2. Elmira Şahtaxtinskaya "Cıdır düzü" (1970) (kətan, yağlı boya)**



**İLL 3. Toğrul Nərimanbəyov "Şuşa"**

Azərbaycanın milli ənənələrə sadiq qalan əməkdar rəssamı Asif Azərelli "Şuşanın gözəl günlərindən biri" (2019) əsərinə diqqət yetirsək, insanların məişəti, yaşayış tərzi, şəhərin tarixiliyi, süjetli tematik tablada canlandırılır. (ill 4)



**İLL 4.Asif Azərelli "Şuşanın gözəl günlərindən biri" (2019) (kətan, yağlı boya, 2000x3000sm)**

Ağ-qara ştrixlərlə istedadlı rəssam Elturan Avalov Şuşanın tarixiliyinə səyahət etdirir. Tarixi şəhərin hər bir hissəsini uğurla canlandırmışdır. Panoramlı perspektivin həll metodlarından kompozisiyalarda daha tutarlı təqdim etmişdir.




**İLL 5. Elturan Avalov " M.P.Vaqifin məqbərəsi.Şuşa"**

2020-ci il 8 noyabr tarixində Azərbaycan ordusu ali baş komandanın rəhbərliyi altında Şuşa şəhərini işğaldan azad edir. Artıq təsviri sənətimizdə yeni qələbə ruhlu əsərlər meydana çıxır. Vətənpərvər, istedadlı rəssam Vuqar Əli plakat janrında işlədiyi əsərlərdə Bülbülün, Üzeyirin, Natəvanın heykəllərinin azad olunmasını, düşmənlərin məhv olmasını canlandırır. Növbəti əsərində Şuşanın azad olunmasını göyərçin obrazında, Qarabağın açar simvolikası ilə, "Biri

Yox idi, biri var artıq" adlandırmışdır.(ill 6) Mir Azər Abdullayev müəllifi olduğu plakat janrında işlədiyi kompozisiyasında Şuşanı qəfəsdən, tikanlı məftillərdən azad olunan qürür simvolumuz kimi təqdim etmişdir. (ill 7) Rahib Qarayev maraqlı kompozisiyaya malik olan heykəltaraşlıq əsərini mənim qürur mənbəyim adlandırmışdır.(ill 8)




**İLL 6. Vüqar Əli " Şuşa"**




**İLL 7. Mir Azər Abdullayev "Şuşa"**




**İLL 8 . Rahib Qarayev "Mənim qürur mənbəyim"**

**NƏTİCƏ**

"Azərbaycanlı rəssamların Şuşa sevgisi" elmi məqaləsinin əsas nəticələri aşağıdakılardır:
-Azərbaycanlı rəssamların Şuşa kompozisiyaları təhlil edilmişdir
-Şuşanın işğaldan azad olunmasına həsr edilən əsərlərə məqalədə geniş yer ayrılmışdır
Azərbaycan Respublikasının prezidenti, ali baş komandan İlham Əliyevin 8 noyabr 2020-ci il tarixi çıxışını bir daha xatırlayaraq, Allah Qarabağımızı, Şuşamızı, bütöv Azərbaycanımızı qorusun.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Ədəbiyyat siyahısı:**

1.Ağayev E. "Altay Hacıyev yaradıcılığında "Qarabağ" mövzusu", Müstəqillik dövründə Azərbaycan təsviri sənətinin inkişafı (ənənə və müasirlik) II Respublika elmi-nəzəri konfransın materialları,6 noyabr 2018,ADMİU, s164-167

2.Ağayev E. "Asif Azərelli yaradıcılığında Qarabağ mövzusu", Elmi əsərlər jurnalı №27,İSSN 2221-7576,ADMİU 2019, s110-113

3.Ağayev E. "Asif Azərelli yaradıcılığında mənzərə janrı", "İncəsənət və mədəniyyət problemləri" beynəlxalq elmi jurnal N3(69), AMEA,s 80-89

4. Ağayev E. ”Asif Azərelli yaradıcılığında Şuşa əfsanəsi”, ”Buta akademik araşdırmalar” jurnalı N 1, Türkiyə.Qars 2020, İSSN 2717-7661,s 93-99

5.Ağayev E “ Asif Azərelli yaradıcılığında “Şuşanın gözəl günlərindən biri” (əsərin sənətşünaslıq kontekstində təhlili)”, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev:Multikulturalizm və tolerantlıq ideologiyası” III beynəlxalq elmi konfrans, s 71-73, Dillər universiteti 5-6 may 2020

6. Əliyev Z. “Qarabağ savaşı qaliblərinin tərənnümü”, Mədəniyyət qəzeti 2020, 20 noyabr, s 7